**Validə HƏSƏNOVA**
*AMEA-nın Mərkəzi Elmi Kitabxanasının doktorantı*

# BİBLİOQRAFİK GÖSTƏRİCİLƏR YENİ DÖVRÜN TƏLƏBLƏRİ QARŞISINDA

***Açar sözlər:*** *Biblioqrafik göstəricilər, Hüseyn İsmayılov, Muxtar Abdullayev, biblioqrafiyaşünaslığın problemləri, biblioqrafiya.*

***Ключевые слова:*** *Библиографические указатель, библиография Хусейна Исмайлова, библиография Мухтара Абдуллаева, проблемы библиографиоведения, библиография*

***Key words:*** *bibliographic resource, Hussein İsmailov, Mukhtar Abdullaev, problems of bibliography, bibliography*

**Biblioqrafiya** - cəmiyyətdə çap əsərlərindən istifadəyə təsir etmək məqsədilə biblioqrafik informasiyanı yaradan və tələbatçılara çatdıran elmi-təcrübi fəaliyyət sahəsidir (1.S.50).

Biblioqrafik təsvirlərin mütəşəkkil toplusunu əks etdirən və beləliklə biblioqrafik informasiyanın cəmiyyət üzvləri tərəfindən səmərəli istifadə olunmasını təmin edən formaya "biblioqrafik vəsait" adı verilir (1.S.22). Biblioqrafik vəsaitlər formalarına, tiplərinə, janrlarına görə fərqləndirilir (1.S.23.) Biblioqrafik göstəricilər, biblioqrafik siyahılar və ədəbiyyat xülasələri biblioqrafik vəsaitlərin əsas tipləri hesab edilir (1.S.24).

Biblioqrafik göstərici tələbatçı üçün o zaman əhəmiyyətli ola bilər ki, o yeni informasiya mənbəyi olsun. Mütəxəssis üçün yeni informasiya mənbələri əxz edə bilsin. Deməli, biblioqrafik göstəricilərə istifadəçi, hansısa əsərin əks etdirilməsini yoxlamaqdan ziyadə yeni tapıntı mənbəyi kimi baxmalı və "bilmədiyim daha nə var?" sualı qarşıya qoyulmalıdır. Bu onu deməyə əsas verir ki, biblioqrafik göstərici açılmamış sirlər xəzinəsi funksiyasını yerinə yetirməlidir. Növündən asılı olmayaraq biblioqrafik göstəricilər biblioqrafik informasiya verməlidir. Bu baxımdan müasir müxtə-

lif elmi tədqiqat müəssisələrinin əməkdaşları tərəfindən tərtib edilmiş biobiblioqrafik göstəricilər qeyri – professional, fərqli mahiyyət kəsb edir.

Dövrümüzdə biblioqrafik göstəricilərin tərtibi zamanı bir çox "yenilik"lər meydana gəlmişdir. Məsələn: biblioqrafik göstəricilərə həddindən artıq geniş oçerklər daxil edilir. Bunlar mədhiyyə xarakteri daşıyır və oxucunu fərqli informasiya ilə yükləyir. Uzun-uzadı yazılmış yazılar insanı yorur və mütaliə yarımçıq qalır. Lakoniklik mühümdür. Biblioqrafik göstəricilər kifayət qədər tanınmış şəxslər haqqında tərtib edilir. Elə şəxslər ki, onlar haqqında artıq bu tipli əsərlər işıqüzü görmüş olur. Bu cür informasiya biobiblioqrafik göstəricidə artıq alimin həyat və yaradıcılığı haqqında yazılmış əsərlərin biblioqrafik təsvirini əks etdirən bölməyə daxil edilir ki, oxucu bu informasiya vasitəsilə lazımi mətnləri özü əldə edə bilər. Biblioqrafik təsvirlər alimin qələmi haqqında kifayət qədər söz deyir. Belə ki, yaradılmış əsər, müəllifinin güzgüsüdür.

Biblioqrafiyaşünaslıq bir elm sahəsidir ki, o da öz-özlüyündə mürəkkəb infrastruktura malikdir. Müxtəlif cür biblioqrafik vəsaitlərə vahid formada "biblioqrafiya" yazmaq nöqsandır və bu bir növ sehirli nağıllara həsr edilmiş kitabın üzərinə "folklorşünaslıq" sözlərini yazmağa bənzəyir. Son dövrlər nəşr edilmiş bu cür biobiblioqrafik göstəricilər kifayət qədər çoxluq təşkil edir. Məsələn: XX əsr torpaqşünaslıq elminin görkəmli elm xadimi, kənd təsərrüfatı elmləri doktoru "Professor Muxtar Rzaqulu oğlu Abdullayevin biblioqrafiyası" (Bakı: Elm, 2012.-396 s.) adlı biobiblioqrafik göstərici tərtib etmişdir. Kitabda alimin əsərləri, haqqında yazmış müəlliflərin əsərləri və elmi-ictimai fəaliyyəti və s. işıqlandırılmışdır. Həcm 396 səhifədir və kitabın yalnız təqribən əlli səhifəsi biblioqarfik təsvirlərlə bağlıdır. Söhbət alimin yaradıcılığını kiçiltmək, yaxud böyütməkdən getmir.



"Biblioqrafiya"ya alimin elmi və bədii yaradıcılığını əks etdirən əsərlərinin mətnləri də daxil edilmişdir. Mətnlər bununla bitməmiş müəllif haqqında yazmış şəxlərin əsərlərinin də mətnləri (hətta şeirləri də) "Biblioqrafiya"ya daxil edilmişdir. Kitabın bu cür tərtibinə qarşı çıxılmır, bu cür hazırlanmış kitablara biblioqrafiya yox "seçilmiş əsərlər", yaxud daha münasib başqa ad verilməli idi. Çünki, burda biblioqrafik göstəriciyə məxsus elmi qanunlara rayət edilməmişdir. Tərtibçi müəlliflər b.e.d. S.Z.Məmmədova və b.ü.f.d. T.E.Qasımzadədir. Sual oluna bilər? Əgər hər bir elm öz "Biblioqrafiya"sını tərtib edə bilərdisə, bəs nə üçün dünya ölkələri özlərinin biblioqrafiya institutlarını yaratmışdırlar?

Sözü gedən "Biblioqrafiya"ya alimin *"Həyat və yaradıcılığının əsas tarixləri", "Elm xadimləri, həmkarları və tələbələrinin qısa fikirləri", "Elmi əsərlərindən seçmələr", "Elmi əsərlərinin biblioqrafiyası", "Elmi rəhbərliyi", "Haqqında yazılmış kitab və məqalələrin siyahısı"*daha sonra isə bu "siyahı"ya daxil edilmiş məqalələrin mətnlərini əks etdirən bölmə *"Elm xadimlərinin məqalələri"* və alimin *"Ədəbi yaradıcılığı"* daxil edilmişdir. Nə üçün alimin əsərlərinin daxil edildiyi bölmə "biblioqrafiya", haqqında yazılmış kitab və məqalələr "siyahı" adlandırılmışdır?

"Biblioqrafiya"nın digər bölməsi *"Göstəricilər (əlifba üzrə)"* adlı bölməsidir. Bölmənin adı ümumidir, dəqiq deyil. Məsələn: *"Elmi əsərləri"* (kimin?). "Biblioqrafiya"ya beş adda köməkçi aparat tərtib edilmişdir. Çox istiqamətli axtarış üçün müsbət haldır. "Biblioqrafiya"ya daxil edilmiş materiallar üç dildə tərtib edilmişdir ki, bu da dünyada M.R.Abdullayev kimi Azərbaycanın görkəmli aliminin tanıdılması üçün gözəl bir xidmətdir.

Müasir biblioqrafik göstəricilərin digər nümunəsi AMEA Folklor İnstitunun əməkdaşı tərəfindən tərtib edilmiş "Hüseyn İsmayılov. Biblioqrafiya" adlı kitabdır (2.). Tərtib işi filologiya elmləri doktoru, professor H.İsmayılov haqqındadır. Burada da

eyni problemlər mövcuddur. Kitabda “biblioqrafik təsvir” əvəzinə “biblioqrafik göstərici” termini işlədilmişdir (2.S.5.). Hansı ki, ***Biblioqrafik göstəricilər** – mürəkkəb quruluşlu və köməkçi aparata malik olan biblioqrafik vəsaitlərdir (1.S.24).* ***Biblioqrafik təsvir***- sənəd haqqında onun eyniləşdirilməsi və axtarışı üçün zəruri olan, kifayət edən əlamətlər toplusudur”(1.S.21).

Biobiblioqrafik göstərici iki hissədən ibarətdir. Birinci hissə *“H.İsmayılov alim, pedaqoq, şəxsiyyət və ictimai xadim kimi”*, ikinci hissə *“Əsərləri, tərtib etdiyi kitablar”*a həsr edilmişdir. İlkin yanaşma bu cürdür. “Biblioqrafiya” alimə həsr edilirsə nə üçün onun əsərləri deyil onun haqqında yazılmış əsərlər ilkin qərarlaşdırılır?

Bu “Biblioqrafiya”da elmi və bədii əsərlərin mətnləri ilə zəngindir. Biblioqrafik göstəricinin yalnız az bir qismi biblioqrafik təsvirlərə həsr edilmişdir. *“Hüseyn İsmayılovun həyatı, elmi – pedoqoji və ictimai fəaliyyətinin əsas tarixləri”* bölməsindən sonra *“Qələm dostları, ədəbiyyat və mədəniyyət xadimləri, oxucuları Hüseyn İsmayılov haqqında”* yazdıqları əsərlərin biblioqrafik təsvirləri ilə yanaşı mətnlər də verilmişdir. Hansı ki, alimin həyat və yaradıcılığına həsr edilmiş əsərlər haqqında olan bölmə vəsaitin ən sonunda verilməli idi.

Bölmələrin adları qüsurludur. Məsələn: müəllif bölmənin adını orda əks edilmiş mənbələrə uyğun verməmişdir - “Hüseyn İsmayılovun *“Göycə aşıq mühiti: təşəkkülü və inkişaf yolları” mövzüsunda doktorluq dissertasiyasına beynəlxalq tərkibdə (Azərbaycan və Gürcüstan) üç mütəxəssis opponentlik etmişdir”*. Bu başlıqdan sonra tərtibçi 21 alimin adını sıralamış və onların H.İsmayılov haqqında geniş fikirləri verilmişdir ki, bu tip yazı mətnləri bundan əvvəlki bölmədə də verilmişdir. Bu cür böyük başlıq bioqrafik informasiya daşıyır və bölmə haqqında heç bir fikir oyatmır. Daha sonra *“Həyatı, elmi-pedaqoji, ictimai fəaliyyəti və əsərləri haqqında”* adlı bölmə yaradılmışdır. Bu bölmədə biblioqafik mənbələrdən sonra alim haqqında yazılmış şeirlər daxil edilmişdir. Alim haqqında yazılmış əsərlərdən sonra *“II hissə. Əsərləri, tərtib etdiyi kitablar”* bölməsi verilmişdir. Hansı ki, bu bölmə alimin həyat və yaradıcılığının əsas tarixlərini əks etdirən bölmədən sonra verilməli, şəxsi əsərləri tərtib etdiyi kitablardan ayırmalı və ayrıca bölmədə qruplaşdırılmalı idi. *“Məqalələri”* bölməsində isə alimin elmi məqalələri bədii yaradıcılığı (şeirləri) ilə eyni bölmədə verilməməli idi. Yəni elmi əsərləri ilə bədii əsərlərin biblioqrafik təsviri ayrı-ayrılıqda alt bölmədə qruplaşdırılmalı idi. Ümumiyyətlə, biblioqrafik göstəriciyə istər elmi, istərsə də bədii əsərlərin mətnləri daxil edilməməli idi. Çünki yuxarıda qeyd edildiyi kimi, biblioqrafik göstərici biblioqrafik informasiya mənbəyidir. Biblioqrafik göstəricidə biblioqrafik informasiya dedikdə daha çox biblioqrafik təsvir nəzərdə tutulur.

“Biblioqrafiya”ya biblioqrafik göstəricinin əsas hissəsini təşkil edən köməkçi aparat isə tərtib edilməmişdir. Bəs onda bu cür tərtib edilmiş bir kitaba nə üçün “Biblioqrafiya” adı verilmişdir!? Bir neçə bölmədə verilməli olan mövzular bir başlıqda cəmləşdirilmişdir. Biblioqrafik mənbələr xronologiya əsasında sistemləşdirilmiş və daxili sistematikada da bu prinsip gözlənilmişdir. Nəzəri cəhətdən xronologiya daxilində xronologiya prinsipi doğru hesab edilir. Lakin nəzəriyyə o zaman qənaətbəxş olur ki, o təcrübədə də öz səmərəlilik təsdiqini tapsın. Məsələn, biobiblioqrafik göstəricilərdə müəllifin dövrü nəşrlərdə dərc edilmiş əsərlərini xronologiya üzrə qruplaşdırmaq mümkündür. Kitabları (fərqi yoxdur şəxsi əsərləri, tərtib etdiyi kitablar və s.) xronologiya üzrə qruplaşdırılması da düzgündür, lakin xronologiya daxilində xronologiya oxuculara daha operativ xidmət aspektindən özünü doğrultmur. Çünki mənbənin axtarışı xronologiya üzrə deyil, əlifba üzrə daha relevantdır. Hər iki tərtib işində mənbələrin təsvirləri

sonuncu "biblioqrafik təsvir qaydaları haqqında dövlət standartı"na əsaslandırılmamışdır.

Dövrümüzdə biblioqrafik göstəricilərin tərtibində bir çox problemlər mövcuddur ki, onlar yuxarıda sadalanan "struktur" məsələsi ilə bitmir. Umimiyyətlə, növündən asılı olmayaraq biblioqrafik göstəricilər tərtib edilərkən istifadəçi və məqsəd istiqaməti mütləq nəzərə alınmalıdır. Tərtibçi şeçilmiş mövzu ilə əlaqədar olan həmin sahənin mütəxəssislərindən fikir almalıdır, qarşılıqlı fikir mübadiləsi olmalıdır. Məsələn, nağıllara aid mövzu biblioqrafik göstəricisi tərtib edilərkən burada bir neçə prinsipə əsaslanmaq mümkündür. Mövzunun biblioqrafik qurluşu hazırlanarkən istifadəçi və məqsəd istiqaməti nəzərə alınaraq tərtibi daha səmərəli olardı. Mümkündür ki, nağılların nəşr tarixi və ya janr xüsusiyyəti ön planda tutulsun. Problem qoyularkən yenə onun tədqiqi istiqamətinin aktuallığı nəzərə alınmalıdır. Biblioqraf bədii mətn ilə elmi əsərləri fərqləndirməlidir və ola bilər ki, nağılların janr xüsussiyyəti də nəzərə alsın, lakin biblioqrafik mənbələr hansı şəkildə sistemləşdirilməsindən asılı olmayaraq, nəticədə biblioqrafik göstərici mövzu ilə əlaqədar sahənin mütəxəsisi tərəfindən redaktəsi qaçılmazdır. Çünki, bir biblioqraf nağılları öz bədii istiqamətinə görə təsnifində tamlığı əhatə edə bilməz.

Biblioqrafiyaşünaslığın elmi, təcrübi fəaliyyət sahəsi kimi problemlərindən ən geniş yayılmış forması digər elmlərə inteqrasiyası zamanı ortaya çıxır. Bəlkə də bu problemlər biblioqrafiyaşünaslıq elmi haqqında insanların yalnız "siyahı" fikrinə, biliyinə malik olmalarından irəli gəlir. Hansı ki, bütün elmlər və alimlər öz elmi varlıqlarının aynasını tam, yaxud küll olaraq biblioqrafik göstəricilər vasitəsilə əks etdirə bilirlər. Müasir informasiya axını sistemində fiziki formasından asılı olmayaraq heç bir mənbə biblioqrafik göstəriciləri əvəz edə bilməz. Elə isə nə üçün torpaqşünas alim ədəbiyyatşünas ola bilmədiyi halda bütün elm sahələrinin mütəxəssisləri biblioqrafiya tərtib edə bilir və elmin səviyyəsini aşağı salır?!



## ƏDƏBİYYAT SİYAHISI:

1. Əliyev Z. Ümumi biblioqrafiyaşünaslıq.-Bakı: BDU,2001.-143 s.

2. Hüseyn İsmayılov: Biblioqrafiya / AMEA Aqrar Elmlər Bölməsi; tərt.ed:S.K.Əliyeva.; elmi.red.:A.Xəlil.-Bakı:Nurlan, 2011. -392 s. (Az.25511)

3. Muxtar Rzaqulu oğlu Abdullayev: Biblioqrafiya: Azərbaycanın elm və mədəniyyət xadimləri seriyası /AMEA Aqrar Elmlər Bölməsi; tərtibçilər: S.Z.Məmmədova, T.E.Qasımzadə; red.: Q.Ş.Məmmədov.- Bakı: Elm,2012-396 s.

**В. Гасанова**

### БИБЛИОГРАФИЧЕСКИЕ УКАЗАТЕЛИ СТАЛКИВАЮТСЯ ИЗ ТРЕБОВАНИЙ НОВОЙ ЭПОХИ

### РЕЗЮМЕ

Статья посвящена проблемам составления библиографических указателей, которые представляют собой отрасли национальнюю библиографиоведения. В ней исследуются ошибки свойственные библиографическим указателям, которые разрабатывались в современной эпохе работниками различных научных исследовательских институтов.

**V. Hasanova**

### BIBLIOGRAPHIC INDEXES FACE OF THE DEMANDS OF A NEW ERA

### SUMMARY

The article is devoted to the problems in compiling of bibliographic indexes which is one of the branch of national bibliography. About admissible shortcomings in the structural be attires of bibliographic indexes compiling by the different scientific use arch institutes in the modern period is spoken in the article.